**Zahidə Tofiq qızı Rzayeva**
***Bakı Dövlət Universiteti***
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru***
***zahidarzayeva@bsu.edu.az***
***Orcid id: 0000-0003-3696-6950***

*UDC 027.7*

## "QARABAĞ KİTABXANALARI" LAYİHƏSİ VƏ ERMƏNI VANDALİZMİNİN İFŞASI (UNEC KİM-in iş təcrübəsi əsasında)

***Xülasə:*** *Məqalədə qeyd edilir ki, müasir universitet kitabxanasının inkişafı informasiya məkanında, təhsil sistemində və elmi kommunikasiyada baş verən dəyişikliklərlə səciyyələnir. Təhsil mühitinin qlobal transformasiyası bir tərəfdən universitet kitabxanaları üçün ciddi problemlər yaradır, digər tərəfdən yeni-yeni inkişaf perspektivləri açır. İndiki dövrdə UNEC Kitabxana-İnformasiya Mərkəzi yardımçı elm-təhsil mühiti kimi tələbələrin həm qlobal biliklər sisteminə fasiləsiz çıxışını təmin edir, həm də daha sıx qarşılıqlı yaradıcılıq münasibətlərinə, elmi kommunikasiyaya şərait yaradır.*

*UNEC Kitabxana-İnformasiya Mərkəzi 2020-ci ilin ilk iki ayında ənənəvi fəaliyyət göstərsə də, mart ayından etibarən mövcud sosial izolyasiya və ciddi karantin dövründə işini onlayn rejimdə davam etdirmişdir. Pandemiya dövründə KİM-in əməkdaşları sosial şəbəkələrdə müxtəlif həştəqlər altında maarifləndirici xəbərlər paylaşmış, açıq girişi olan abunəli bazalardan istifadə etməklə, həmçinin elm, təhsil, iqtisadiyyat, ədəbiyyat, mədəniyyət və s. sahələr üzrə maraqlı posterlər hazırlayıb təqdim etmiş, onlayn sorğu-məlumat xidmətləri həyata keçirmişlər. Qarabağ müharibəsi dövründə UNEC KİM-in sosial şəbəkələrdə mövcud olan səhifələrində müxtəlif həştəqlər altında ayrı-ayrı dillərdə məlumatlar, posterlər və videoxəbərlər paylaşmışdır.*

***Açar sözlər:*** *Azərbaycanda kitabxanaları, kitabxana-informasiya fəaliyyəti, informasiya-kommunikasiya texnologiyaları, kitabxana-informasiya xidməti, UNEC Kitabxana-İnformasiya Mərkəzi, "Qarabağ kitabxanaları" layihəsi, erməni işğalçılarının cinayətlərinin ifşa olunması.*

**Zahida Tofig gizi Rzayeva**

## The role of the document and communication system in modern library and information networks

***Summary:*** *The article notes that the development of a modern university library is characterized by changes in the information space, education system and scientific communication. The global transformation of the educational environment, on the one hand, creates serious problems for university libraries, on the other hand, opens up new prospects for development. Today, the UNEC Library and Information Center, as an auxiliary scientific and educational environment, provides students with continuous access to the global knowledge system, and also creates conditions for closer creative relations and scientific communication.*

*It should be noted that the UNEC Library and Information Center, although it traditionally worked in the first two months of 2020, has been operating online since March during the current social isolation and strict quarantine. During the pandemic, CIA employees shared education news on social networks under various hashtags using open subscription databases, as well as science, education, economics, literature, culture, etc. developed and presented interesting posters in the field, implemented online surveys and information services. During the Karabakh war, UNEC shared information, posters and video news in different languages on its social media pages under various hashtags.*

***Key words:*** *libraries in Azerbaijan, library and information activities, information and communication technologies, library and information services, UNEC Library and Information Center, karabakh library project, exposing the crimes of the armenian invaders.*

**Захида Тофик кызы Рзаева**

## ПРОЕКТ "КАРАБАХСКИЕ БИБЛИОТЕКИ" И РАЗОБЛАЧЕНИЕ АРМЯНСКОГО ВАНДАЛИЗМА (на основе опыта работы Информационно-библиотечного центра UNEC)

***Резюме:*** *В статье отмечается, что развитие современной вузовской библиотеки характеризуется изменениями в информационном пространстве, системе образования и научной коммуникации. Глобальная трансформация образовательной среды, с одной стороны, создает серьезные проблемы для университетских библиотек, с другой стороны, открывает новые перспективы для развития. Сегодня Библиотечно-информационный центр UNEC как вспомогательная научно-образовательная среда обеспечивает студентам непрерывный доступ к глобальной системе знаний, а также создает условия для более тесных творческих отношений и научного общения.*

*Следует отметить, что Библиотечно-информационный центр UNEC, хотя традиционно работал в первые два месяца 2020 года, с марта в условиях нынешней социальной изоляции и жесткого карантина работает в режиме онлайн. В период пандемии сотрудники ЦРУ делились новостями образования в социальных сетях под различными хештегами, используя открытые подписные базы данных, а также науку, образование, экономику, литературу, культуру и т. д. Разрабатывали и представляли интересные плакаты в сфере, внедряли онлайн-опросы и информационные сервисы. Во время Карабахской войны UNEC делилась информацией, плакатами и видеоновостями на разных языках на своих страницах в социальных сетях под разными хэштегами.*

***Ключевые слова:*** *библиотеки в Азербайджане, библиотечно-информационная деятельность, информационно-коммуникационные технологии, библиотечно-информационные услуги, Библиотечно-информационный центр UNEC, библиотечный проект Карабах, разоблачение преступлений армянских оккупантов.*

Son illərdə dünyada və ölkəmizdə kitabxana işində böyük innovativ dəyişikliklər baş vermişdir. Kitabxanaların distant şəkildə fəaliyyət göstərə bilməsi, elektron xidmətlərin geniş vüsət alması məhz bu sahədə mühüm inkişaf göstəricilərindən biridir. Bu gün internetin xidmət şəbəkələrinin genişliyi sosial-mədəni sahənin də elektronlaşdırılmasını zərurətə çevirib. Milli-mənəvi dəyərlərimizin qorunub gələcək nəsillərə çatdırılması ilə yanaşı, eyni zamanda onların beynəlxalq aləmə təqdim edilməsində də elektron kitabxanaların rolu əvəzsizdir.

Bir sıra sahələrdə olduğu kimi respublikada kitabxanaların da fəaliyyətinin yaxşılaşdırılması istiqamətində hər zaman dövlət tərəfindən mühüm qərarlar qəbul edilmiş, bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamı və "Azərbaycanda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" mühüm tədbirlərin həyata keçirilməsi məqsədilə atılmış addımlardan idi. Beş illik dövlət proqramında nəzərdə tutulmuş işlərin icrası, beynəlxalq standartlara cavab verən elektron kitabxana-informasiya sistemlərinin tətbiqi ölkə kitabxanalarının avtomatlaşdırılması istiqamətində əhəmiyyətli təşəbbüslərdən hesab edilir. Artıq kitabxanalarda proseslərin avtomatlaşdırılması, kitabxana fondunun rəqəmsallaşdırılması və elektron resursların yaradılması istiqamətində işləri həyata keçirmək üçün yeni şöbələr yaradılırdı. Kitabxanaların fəaliyyətində baş verən köklü texnoloji dəyişikliklər kadrların səriştəsinin artırılması, yeni vərdişlərin formalaşması, beynəlxalq təcrübənin öyrənilməsi kimi tələbləri diktə edirdi. Odur ki, kitabxanaların həm strukturunda, həm iş prosesində, həm kadr siyasətində, həm də dünya kitabxanaları ilə inteqrasiyasında yeni mərhələ başlamışdı.

Bundan başqa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Milli Strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramında Milli Strategiya ilə müəyyən edilmiş 8 istiqamətdən 7-si üzrə konkret tədbirlər nəzərdə tutulmuş və yerinə yetirilmişdur. Dövlət Proqramının hazırlanmasında beynəlxalq təcrübə, texnoloji yeniliklər və inkişaf meyilləri nəzərə alınmış, vətəndaş, cəmiyyət, dövlət prioritetləri və onların informasiya cəmiyyətinin imkanlarından səmərəli istifadəsi əsas götürülmüşdür. Dövlət Proqramının məqsədi Milli Strategiyada informasiya cəmiyyətinin inkişaf etdirilməsi üzrə qarşıya qoyulan əsas məqsəd və vəzifələrin, fəaliyyət istiqamətlərinin həyata keçirilməsinin təmin edilməsi olmuşdur.





Azərbaycan Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC Kitabxana İnformasiya Mərkəzi 2019-cu ildə Əsaslı Kitabxananın bazasında yaradılmışdır. UNEC Kitabxana İnformasiya Mərkəzi universitetin tədris prosesinə, elmi-tədqiqat və innovativ fəaliyyətinə uyğun olaraq öz fondunu Azərbaycan, ingilis, rus və türk dillərində kitab, kitabça, jurnal, qəzet, tədris proqramı, dissertasiya, avtoreferat və digər informasiya resursları ilə formalaşdırır.

Bu baxımdan ölkəmizin bir sıra qabaqcıl kitabxanaları kimi, Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC Kitabxana-İnformasiya Mərkəzinin də fəaliyyəti nümunəvi sayıla bilər. UNEC Kitabxana İnformasiya Mərkəzinin 24/7 Kitabxanası fəaliyyətinə başladığı vaxtdan müxtəlif layihələrin həyata keçirilməsi, təlimlərin təşkili, bir-birindən rəngarəng tədbirlərin təqdimatı ilə həm UNEC-in akademik heyəti, həm tələbələri, həm də həmkar kitabxana mütəxəssisləri tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC Kitabxana-İnformasiya Mərkəzi universitetin 90 illik fəaliyyəti dövründə mühüm yol qət etmiş, bir sıra dəyişikliklər baş vermiş, kitabxananın texniki təchizatından tutmuş, oxuculara xidmətin 24 saat ərzində operativ təşkilinə qədər mühüm innovativ irəliləyişlər olmuşdur. Artıq UNEC oxucuları ənənəvi fəaliyyətdə olduğu kimi kitabxananın distant fəaliyyətində də, həm onlayn xidmətlərdən, həm elektron resurslardan yararlana bilir, 24 saat ərzində kitabxanaçıya onlayn müraciət edərək operativ şəkildə sorğusuna cavab ala bilir.

İnformasiya texnologiyalarının sürətli inkişafı, verilənlər bazalarının imkanlarının artması nəticəsində elektron resursların həcminin çoxalması bu resursların avtomatik təsnif olunmasını, axtarış funksiyalarının standartlara uyğun qurulmasını zəruriyyətə çevirir. UNEC-də qurulmuş elektron idarəetmə sistemi kitabxana fəaliyyətindən də yan keçməmiş, 2018-ci ildə 3 mərtəbəli 24/7 kitabxanası təşkil edilmiş, 1 və 2 saylı kitabxanalar əsaslı təmir edilərək oxucuların istifadəsinə təqdim edilmişdir. 2020-ci ildə isə açılışında ölkə başçısının da iştirak etdiyi universitetin 3 saylı tədris binasında yeni, müasir dizayn və stildə rahat kitabxana məkanının yaradılması təqdirəlayiq hesab edilir.

Müasir dövr artıq informasiya cəmiyyətinin qurulması ilə səciyyələnir. Kitabxanalar cəmiyyətin mədəni sərvəti və informasiya bazasıdır. Müasir dövrdə kitabxanalar olduqca mürəkkəb sosial funksiyaları yerinə yetirməklə, oxucuların mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərir. Kitabxanaların yerinə yetirdikləri funksiyalar "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda daha ətraflı öz əksini tapmışdır. Qanunda yazılır: "Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb, mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur" [6].

Bu dövrdə kitabxanaların formalaşması və inkişafı dövlətin və cəmiyyətin qayğısı ilə, yeni kitabxana-informasiya texnologiyalarına yiyələnmiş, təşəbbüskar kitabxanaçıların gərgin əməyi nəticəsində yerinə yetirilir.

İnformasiya qloballaşaraq tələbatçıların başlıca axtarış və mənbə mərkəzinə çevrilmişdir. Müasir dövrdə cəmiyyətin sürətlə inkişaf etməsi, kitabxanaları yeni informasiya texnologiyalarından, komputerləşmiş iş vasitələrindən, durmadan artan informasiya ötürücülərindən, operativ kommunikasiya şəbəkələrindən maksimum səviyyədə istifadəsini vacib edir. Kitabxanalar öz oxucularını bütün məlumatları müasir üsullarla öyrənməyə istiqamətləndirir.

Cəmiyyətin informasiyalaşdırılması mühüm prosesdir. Azəbaycan respublikası Milli Məclis tərəfindən 3 aprel1998-ci ildə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun qəbul edilmişdir. Bu qanunda informasiyalaşdırma anlayışının tərifi belə verilmişdir: "İnformasiyalaşdırma informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünü idarəetmə orqanlarının təşkilati, hüquqi və mülkiyyət fomasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların və vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsində optimal şəraitin yaradılması üçün təşkilati, sosial və elmi-texniki prosesdir" [5, s.12].

Bu informasiyalaşdırılmış cəmiyyətdə UNEC 100 illik yubileyinə qədər daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmağı qarşısına hədəf qoymuşdur. Bu məqsədlə "UNEC-100" İnkişaf Strategiyasında strateji idarəetməni tam şəkildə təmin etmək üçün strateji hədəflər və fəaliyyət istiqamətləri müəyyənləşdirmişdir. 2030-cu ilə qədər UNEC-də insan, maliyyə və informasiya resurslarının idarəedilməsində səmərəliliyi davamlı yüksəltmək, həmçinin idarəetmə strukturunu optimallaşdırmaq nəzərdə tutulub.

Məlum olduğu kimi, 2020-ci il bütün dünyada COVİD-19 virusuna qarşı mübarizə və pandemiya ili kimi xatırlansa da, bu il Azərbaycan üçün təxminən 30 il erməni əsarətində qalmış Qarabağın və onun ətrafındakı rayonların düşmən işğalından azad edilməsi ilə əlamətdar oldu. Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və müzəffər ordumuzun əzmi ilə Azərbaycan xalqı möhtəşəm Zəfər qazanaraq yeni inkişaf dövrünə qədəm qoydu.

Qeyd edək ki, UNEC Kitabxana-İnformasiya Mərkəzi 2020-ci ilin ilk iki ayında ənənəvi fəaliyyət göstərsə də, mart ayından etibarən mövcud sosial izolyasiya və ciddi karantin dövründə işini onlayn rejimdə davam etdirmişdir. Pandemiya dövründə KİM-in əməkdaşları sosial şəbəkələrdə müxtəlif həştəqlər altında maarifləndirici xəbərlər paylaşmış, açıq girişi olan abunəli bazalardan istifadə etməklə, həmçinin elm, təhsil, iqtisadiyyat, ədəbiyyat, mədəniyyət və s. sahələr üzrə maraqlı posterlər hazırlayıb təqdim etmiş, onlayn sorğu-məlumat xidmətləri həyata keçirmişlər. Qarabağ müharibəsi dövründə UNEC KİM-in sosial şəbəkələrdə mövcud olan səhifələrində müxtəlif həştəqlər altında ayrı-ayrı dillərdə məlumatlar, posterlər və videoxəbərlər paylaşmışdır.

UNEC Kitabxana-İnformasiya Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayevanın məlumatına əsasən, 2020-ci ildə ən əlamətdar hadisələrdən biri UNEC-in yeni tədris binasında UNEC KİM-in 3 saylı





kitabxanasının açılışı olmuşdur. Bu kitabxana 4604 nüsxə kitab, müxtəlif dövri nəşrlər, 43 ədəd kompüterlə təmin edilmişdir. Həmin kitablardan 4226-sı Azərbaycan dilində, 378-i xarici dildədir. 2020-ci ildə UNEC Kitabxana-İnformasiya Mərkəzinə 1758 nüsxə kitab daxil olmuşdur ki, onlardan 1484 nüsxəsi Azərbaycan dilində, 274 nüsxəsi isə xarici dillərdədir [1].

2020-ci ilin payızında işğalçı Ermənistana qarşı Vətən müharibəsi – ikinci Qarabağ müharibəsi günlərində, həmçinin müharibədən sonrakı dövrdə aparılan informasiya savaşı zamanı UNEC KİM 24/7 Kitabxanası fəaliyyətini xeyli genişləndirmişdir. Müharibə zamanı informasiya təhlükəsizliyi barədə məlumatlandırma posterləri, "Qarabağ Azərbaycandır!" həştəqli və digər aktual posterlər hazırlanaraq onlayn formada paylaşılmışdır.

Həmin dövrdə eyni zamanda kitabxana daha iki mühüm layihəyə: "Qarabağ tarixi sənədlərdə" və "Qarabağ Kitabxanaları" layihələrinə start vermişdir.

"Qarabağ tarixi sənədlərdə" layihəsinin məqsədi mövcud informasiya savaşında ermənilərin Azərbaycan tarixinə, o cümlədən əzəli-əbədi ərazimiz olan Qarabağın keçmişinə kölgə salan saxta, uydurma, yalan məlumatlarına qarşı dürüst tarixi sənədlərlə, mötəbər mənbələrlə çıxmaqdan ibarətdir. Bu təxirəsalınmaz və milli əhəmiyyətli vəzifəni yüksək səviyyədə həyata keçirmək üçün kitabxananın bu işlərə məsul olan əməkdaşları xüsusi fəallıq göstərirlər. Onlar əldə edilmiş materialları orijinalda geniş auditoriyaya çatdırmaqla yanaşı, həm də türk, rus, ingilis və başqa dillərdə olan tarixi mətnləri Azərbaycan dilinə çevirərək təqdim edirlər. Məsələn, indiyə qədər 1915-ci ildə Osmanlı dövlətində ermənilərə qarşı soyqırımı olmadığını sübuta yetirən tarixi sənədlər Rusiyanın dövlət arxivlərindən toplanılaraq yayılmışdır. Bundan başqa, tanınmış mütəxəssislərdən İvan Şopenin kitablarından seçmələr, Sergey Qlinkanın qeydləri, "Ermənilərin Azərbaycana köçürülməsinə dair" sənədlər, G.T.Koppelin Şuşanın 1824-cü ildəki əhalisinin tərkibi haqqında məlumatı və digər vacib istinad mənbələri 7 buraxılışda hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

UNEC KİM-in 24/7 Kitabxanasının müdiri Arzu Məmmədovanın verdiyi məlumata görə, 24/7 Kitabxanasının "Qarabağ Kitabxanaları" layihəsi UNEC Könüllüləri Təşkilatının təşkilatçılığı ilə ərsəyə gəlmişdir. Layihənin məqsədi istifadçılərə Qarabağ ərazisində kitabxanaların təşkili, onların işğaldan əvvəlki dövründə fəaliyyəti, işğal zamanı ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb talan olunması haqqında məlumat verməkdir. Onu da vurğulayaq ki, layihəyə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi Nabat Əliyeva da cəlb edilmiş, o, tapşırılan işləri yüksək səviyyədə yerinə yetirməyə səy göstərmişdir [1].

Layihə çərçivəsində istifadıçılərə qısa müddətdə 8 buraxılış təqdim edilmişdir. Layihənin "Qarabağ Kitabxanaları. Şuşa" adlanan birinci buraxılışı Şuşa şəhərinin işğaldan azad olunduğu gün – 8 noyabr 2020-ci ildə, Laçın kitabxanalarına həsr olunmuş növbəti buraxılışı isə 1 dekabr 2020-ci ildə təqdim edilmişdir.

Daha sonra hazırlanmış Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər kitabxanaları haqqında buraxılışlar da istifadıçilər tərəfindən rəğbətlə qarşılanmışdır.

Bununla yanaşı, 2020-ci ilin iyun ayında Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları" mövzusunda respublika virtual elmi konfransına UNEC KİM də qatılmış, direktor Adilə Abdullayevanın "UNEC Kitabxana İnformasiya-Mərkəzinin fəaliyyəti: reallıqlar və yeni hədəflər" mövzusunda çıxış etmişdir [2].

Onu da qeyd edək ki, 2020-ci ilin dekabrında Azərbaycan Dövlət İqtisad Universitetinin təşkilatçılığı və UNEC-in Kitabxana İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayevanın təşəbbüsü ilə "COVİD-19 və universitet kitabxanalarının rəqəmsal mühitə adaptasiyası" mövzusunda onlayn dəyirmi masa keçirilmişdir. Dəyirmi masada Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Sumqayıt, Gəncə, Naxçıvan Dövlət Universiteti və ölkənin digər ali təhsil müəssisələrinin kitabxana rəhbərləri, səriştəli kitabxana mütəxəssisləri, eləcə də Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti iştirak etmişlər. Tədbirdə "Kitabxanalarda rəqəmsallaşdırma: texniki təminat və hüquqi aspektlər", "Kitabxanaların fəaliyyətinin iqtisadi aspektləri", "Kitabxanaların onlayn xidmətlərində ünsiyyət məhdudiyyətləri", "Distant təhsilin informasiya-resurs təminatında universitet kitabxanalarının vəzifələri" mövzularında təqdimatlar olmuşdur. Çıxışlardan sonra elektron kitabxanaların hazırkı durumu, mövcud problemlər və onların həlli istiqamətində fikir mübadiləsi aparılmışdır. Müzakirələr zamanı universitetlərdə gələcəyə baxış konsepsiyasının müəyyənləşdirilməsi, rəqəmsal resursların günün tələbinə uyğun formalaşdırılması, universitetlərin vahid rəqəmsal resurs mərkəzinin yaradılması, universitetlərdə çalışan kitabxana mütəxəssislərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yerli və beynəlxalq təlimlərin təşkili barədə təkliflər səsləndirilmişdir [2].

UNEC-in elektron kitabxanası və oxu zalı müasir tələblərə cavab verən kompüter avadanlıqları ilə təchiz edilmiş, avtomatlaşdırılmışdır. Bu da internet vasitəsilə başqa kitabxanalara yol açıb, əlaqə yaranmasına imkan verir. Dünyanın əksər ölkələrində kitabxana xidmətinin, sənəd-informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir və bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr, həm də qeyri-hökumət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir.

Zəngin kitab fonduna malik OLAN UNEC-in Kitabxana İnformasiya son illər ərzində yüksək göstəricilərə nail olmuşdur. UNEC-də "24/7 kitabxana"nın yaradılması buna canlı misal ola bilər. Ölkədə ilk dəfə olaraq 7 gün, 24 saat fəaliyyət göstərən kitabxana müvafiq standartlara uyğun işıqlandırma və





havalandırma sistemi, müasir proqram təminatı, yüksək sürətli fiber optik internet xətti və ən yeni parametrlərə sahib kompüterlərlə təchiz edilmişdir.

Hazırda UNEC-in Kitabxana İnformasiya Mərkəzi, o cümlədən UNEC KİM-in 24/7 Kitabxanası akademik heyət və tələbə təşkilatları ilə sıx əməkdaşlıq edir, öz fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində qurmağa, kitabxana-informasiya proseslərinin tam şəkildə vahid və interaktiv informasiya şəbəkəsinin yaradılmasına və s. töhfə verməyə çalışır. Bu gün UNEC KİM ən müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə və internet informasiya resursları, elektron kataloq, elektron kitabxana və elektron məlumat bazaları yaratmaqla elmi kommunikasiyaların inkişafına müəyyən qədər təkan verir.

Hazırda UNEC-də həyata keçirilən tədris, elmi tədqiqat proseslərinin informasiya-resurs təminatını həyata keçirən KİM kitabxana-informasiya sisteminin modemləşdirilməsi üzrə inkişaf edir. Həmçinin KİM yeni beynəlxalq elmi-informasiya mənbələrinə fasiləsiz çıxışın təmin edilməsini, kitabxana-informasiya proseslərinin tam şəkildə avtomatlaşdırılmasının təkmilləşdirilməsini özünə hədəf seçmişdir. İndiki dövrdə bütün sahələrdə olduğu kimi kitabxana fəaliyyətində də yeniliklərin tətbiqi mütləqdir.

KİM-də vahid və interaktiv informasiya şəbəkəsinin formalaşdırılması, beynəlxalq kitab-məlumat-təcrübə mübadiləsi proseslərinin aktivləşdirilməsi, yeni beynəlxalq tələblərə cavab verən avtomatlaşdırılmış kitabxana informasiya sisteminin qurulması qarşıda duran əsas vəzifələrdən hesab edilir. UNEC KİM-in fəaliyyətini araşdırdıqda günbəgün artan silsilə nailiyyətləri görsək də, qarşıda hələ görüləcək çox işlərin olduğu danılmazdır. Zənnimizcə, dünyada baş verən yenilikləri öyrənməklə onların tətbiqinə nail olmaq, bu yolda yaxşı mütəxəssislər formalaşdırmaq və özünü inkişafa davam etmək qarşıda duran mühüm vəzifələrdən hesab edilir.

## ƏDƏBİYYAT


1. *Abdullayeva, A. Elmi tədqiqatların informasiya təminatında kitabxana informasiya mərkəzinin fəaliyyəti // 525-ci qəzet, 12 iyun 2020, s.8.*
2. *Abdullayeva, A. Elmi tədqiqatların informasiya təminatında UNEC modeli // "Mədəniyyət" qəzeti, 12 iyun 2020, s. 6.*
3. *Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin 2020-2021-ci illər üçün hesabatları.*
4. *Elektron məlumat bazalarının yaradılması və virtual xidmət: metodik tövsiyə / tərt. ed. S.Salamlı; ixt. red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. - Bakı, 2012, 46 s.*
5. *"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu //Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998, №6, s.12-14.*
6. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. - Bakı, 1999, 16 s.*